NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Capital Partners İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarına və İdarə Heyətinə

***Rəy***

Biz "Capital Partners Investisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) 31 dekabr 2025-ci il tarixində təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixində maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün şəkildə əks etdirir.

***Rəy üçün Əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Digər Məsələ**

Cəmiyyətin 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları müstəqil auditor tərəfindən audit olunmuş və həmin auditor 30 may 2025-ci il tarixində bu maliyyə hesabatları üzrə müsbət rəy bildirmişdir.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının auditi çərçivəsində biz, həmçinin 7 saylı Qeyddə təsvir edilən və 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarına tətbiq olunmuş düzəlişləri də audit etmişik.

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik, maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və təqdim olunması üzrə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya səhvlərdən qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları tərtib edildikdə, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatları prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir.
Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz, həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki saxtakarlıq, sözləşmə, qərərzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti NR PROAUDİT Limited Liability Company Azerbaijan Republic

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

# “CAPİTAL PARTNERS İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il (yenidən bəyan edilmiş)* |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 9 | 8,768 | 4,195 |
| Qeyri-maddi aktivlər | 10 | 213,874 | 126,867 |
| İstifadə hüququ olan aktivlər | 11 | 64,848 | - |
| İnvestisiya aktivləri | 12 | 294,000 | 294,000 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **581,490** | **425,062** |
| **Qısamüddətli aktivlər:** | | | |
| İnvestisiya aktivləri | 12 | 109,570 | 165,319 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 154,444 | 73,095 |
| Müştəri hesabları | 13 | 122,901 | 45,855 |
| Debitor borcları | 14 | 29,638 | 82,900 |
| Avans ödənişləri | | 445 | 315 |
| **Cəmi qısamüddətli aktivlər** | | **416,998** | **367,484** |
| **CƏMİ AKTİVLƏR** | | **998,488** | **792,546** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 22 | 41,878 | 37,939 |
| İcarə öhdəlikləri | 11 | 35,472 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **77,350** | **37,939** |
| **Qısamüddətli öhdəliklər:** | | | |
| İcarə öhdəlikləri | 11 | 31,734 | - |
| Kreditor borcları | 15 | 19,200 | 4,172 |
| Müqavilə öhdəlikləri | 16 | 122,901 | 45,855 |
| Digər qısamüddətli öhdəliklər | 17 | 32,064 | 42,685 |
| **Cəmi cari öhdəliklər** | | **205,899** | **92,712** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **283,249** | **130,645** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 18 | 400,000 | 400,000 |
| Bölüşdürülməmiş mənfəət | | 171,239 | 117,901 |
| İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış gəlirlər | 18 | 144,000 | 144,000 |
| **Cəmi kapital** | | **715,239** | **661,901** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **998,488** | **792,546** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

**İkram Səfərəliyev**
**Direktor**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasibatlıq və inzibati işlər departamentinin rəhbəri**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-46-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il (yenidən bəyan edilmiş)* |
|---|---|---|---|
| Əməliyyat gəlirləri | 19 | 684,096 | 374,746 |
| İnvestisiya fəaliyyətindən gəlirlər | 20 | 26,154 | 24,323 |
| **Cəmi gəlirlər** | | **710,250** | **399,069** |
| İşçi heyəti üzrə xərclər | | (350,028) | (263,287) |
| Köhnəlmə xərcləri | 9,10,11 | (39,667) | (1,217) |
| Faiz xərci | | (5,852) | - |
| Ticarət əməliyyatları üzrə xərclər | | (2,304) | (9,536) |
| Reyestrlər üzrə xidmətlər | | (3,401) | (3,492) |
| Sair inzibati xərclər | 21 | (235,289) | (60,110) |
| **Cəmi inzibati və sair xərclər** | | **(636,541)** | **(337,642)** |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **73,709** | **61,427** |
| Mənfəət vergisi | 22 | (20,371) | (15,206) |
| **İl üzrə xalis mənfəət** | | **53,338** | **46,221** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **53,338** | **46,221** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

Qapalı Səhmdar Cəmiyyəti · Capital Partners İnvestisiya şirkəti · Closed Joint-Stock Company

**İkram Səfərəliyev**
**Direktor**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasibatlıq və inzibati işlər departamentinin rəhbəri**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-46-cı səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış gəlirlər | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **400,000** | **71,680** | **144,000** | **615,680** |
| İl üzrə cəmi məcmu gəlir | - | 46,221 | - | 46,221 |
| **31 dekabr 2024-cü il** | **400,000** | **117,901** | **144,000** | **661,901** |
| İl üzrə cəmi məcmu gəlir | - | 53,338 | - | 53,338 |
| **31 dekabr 2025-ci il** | **400,000** | **171,239** | **144,000** | **715,239** |

**Rəhbərlik adından:**

**İkram Səfərəliyev**
**Direktor**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasibatlıq və inzibati işlər departamentinin rəhbəri**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-46-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "CAPİTAL PARTNERS İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd olunmadığı halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə (yenidən bəyan edilmiş)* |
|---|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | 73,709 | 61,427 |
| Köhnəlmə xərcləri | 9,10,11 | 39,667 | 1,217 |
| Faiz xərcləri | 11 | 5,852 | - |
| Ticarət məqsədli qiymətli kağızlar üzrə yenidən qiymətləndirmə gəliri | 20 | (1,754) | (2,519) |
| **Dövriyyə kapitalındakı dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin xaricolmaları** | | **117,474** | **60,125** |
| **Dəyişiklər:** | | | |
| Debitor borcları | | 53,262 | (15,911) |
| İnvestisiya aktivləri | | 57,503 | (216,800) |
| Avans ödənişləri | | (130) | (135) |
| Kreditor borcları | | 8,005 | 1,144 |
| Digər aktivlər | | - | (1,021) |
| Digər öhdəliklər | | 8,627 | 23,274 |
| **Dövriyyə kapitalındakı dəyişikliklər** | | **127,267** | **(209,449)** |
| Ödənilmiş mənfəət vergisi | | (35,674) | (2,587) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **209,067** | **(151,911)** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Əmlak, tikili və avadanlıqların satın alınması | | - | (979) |
| Qeyri-maddi aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | (102,608) | (66,867) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(102,608)** | **(67,846)** |
| **MALİYYƏLƏŞDİRMƏ ÜZRƏ FƏALİYYƏTLƏRDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Ödənilmiş icarə öhdəliyi - əsas məbləğ | 11 | (19,258) | - |
| Ödənilmiş icarə öhdəliyi - faiz məbləği | 11 | (5,852) | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis** | | **(25,110)** | **-** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM | | 81,349 | (219,757) |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 13 | **73,095** | **292,852** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 13 | **154,444** | **73,095** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

**İkram Səfərəliyev**
**Direktor**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasibatlıq və inzibati işlər departamentinin rəhbəri**

26 may 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Qapalı Səhmdar Cəmiyyəti Capital Partners Closed Joint-Stock Company

10-46-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.